# Nizami ədəbi məktəbinin görkəmli tədqiqatçısı Mehdi Kazımov



Azərbaycan xalqının dahi sənətkarı Nizami Gəncəvinin çoxcəhətli zəngin irsi elə yarandığı dövrdən başlayaraq milli və coğrafi sərhədləri aşmış, şairin vətəninin hüdudlarından uzaqlarda da şöhrətlənmiş, məhəbbətlə oxunmuş, öyrənilmiş, tədqir edilərək izlənmişdir.

Nizaminin yaradıcılığında əsrlərdən bəri bəşəriyyəti düşündürən problemlər öz əksini tapdığı üçün və yüksək humanist ideyalar tərənnüm edildiyindən onun ədəbi təsiri Şərqi Avropadan tutmuş Hindistanadək böyük ərazini əhatə etmişdir. XIII əsrdən başlayaraq müxtəlif xalqların təmsil etdiyi farsdilli poeziyanın ən mütərəqqi nümayəndələri Nizami üslubunu mənimsəmiş, "Xəmsə" bağlamaq ənənəsini yaşatmış, şairin poemaları mövzusunda əsər yazıb, onun mütərəqqi fikirlərini davam etdirmək cəhdi göstərmişlər. Beləliklə, Şərqdə əsrlərlə davam edən epik poeziyada mükəmməl üslub çaları – Nizami ədəbi məktəbi formalaşmışdır.

Bu gün təkcə Azərbaycan, türk və digər Şərq alimlərinin deyil, rus və Avropa tədqiqatçılarının əsərlərində də Nizami ardıcıllarının: Əmir Xosrov Dəhləvi, Abdürrəhman Cami, Əlişir Nəvai, Məhəmməd Füzuli kimi şairlərin adı dünya klassikləri sırasında söz sənətinin böyük ustaları qismində çəkilməkdədir.

Yəqin bunun təsiridir ki, Nizami irsi ilə yanaşı, onun ədəbi məktəbinin nümayəndələrinin yaradıcılığı da, ümumiyyətlə xəmsəçilik özü Azərbaycan ədəbiyyatşünaslığının daima diqqət mərkəzində olmuşdur. Belə ədəbiyyatşünaslarımız sırasında Həmid Araslı, Mübariz Əlizadə, Azadə Rüstəmova, Qəzənfər Əliyev, Rüstəm Əliyev, Nüşabə Araslı və başqalarının imzası ölkəmizdən kənarda da tanınır. Onların ərsəyə gətirdiyi qiymətli tədqiqatlar arasında Həmid Araslının "Nizami və özbək ədəbiyyatı" məqaləsinin, Qəzənfər Əliyevin "Şərq xalqlarının ədəbiyyatında Xosrov və Şirin əfsanəsi", "Şərq xalqlarının ədəbiyyatında Nizami mövzuları və süjetləri", Nüşabə Araslının "Nizami və türk ədəbiyyatı" kimi fundamental monoqrafiyaların adları xüsusi qeyd olunmalıdır.

Nizami ənənələrini, onun mövzu və ideya ardıcıllarını tədqiq edən belə alimlərimizdən biri də filologiya elmlər doktoru, professor Mehdi Kazımovdur. Onun ölkədə və xaricdə nizamişünasların dəfələrlə istinad etdiyi qiymətli tədqiqatları sırasında "Nizaminin "Həft peykər"i və XIV-XVI əsrlərin farsdilli ədəbiyyatda nəzirə ənənəsi", "Nizaminin ardıclıları" monoqrafiyalarının adlarını çəkmək kifayətdir ki, Nizami ədəbi məktəbinin öyrənilməsinə verdiyi qiymətli töhfələr haqqında ilkin təəssürat yaransın.

Nizami ədəbi məktəbi və ümumiyyətlə İslam Şərqində ədəbi ənənə mövzusunda ardıcıl araşdırmalar aparan, farsdilli ədəbiyyat, müqayisəli ədəbiyyatşünaslıq, mənbəşünaslıq sahələrində aparıcı mütəxəssislərdən biri kimi tanınan alimin namizədlik və doktorluq dissertasiyalarının mövzuları da fars dilinin ədəbiyyat dili kimi qəbul olunduğu, bu dilin anlaşıldığı arealda Nizami əsərlərinin təsir dairəsinin araşdırılması, qüdrətli Azərbaycan şairinin əsərlərinə yazılan nəzirələrdə onun mütərəqqi ideyalarının və özünəməxsus üslubunun inkişaf etdirmə ənənəsinin öyrənilməsi ilə bağlıdır. Belə ki, M.Kazımov 1981-ci ildə "Nizami Gəncəvinin "Yeddi gözəl" və Əmir Xosrov Dəhləvinin "Səkkiz cənnət bağı" poemalarının müqayisəli təhlili" mövzusunda namizədlik, 1990-cı ildə "XVI-XVIII əsrlər farsdilli şairlərin "Xəmsə"lərində normativlik və yaradıcılıq fərdiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Hər iki dissertasiya işi Azərbaycan ədəbiyyatşünasları və tanınmış dünya şərqşünasları tərəfindən yüksək qiymətləndirilmiş, bu tədqiqatların nəticələrinin dərc olunduğu yazılar dəfələrlə istinad mənbəyinə çevrilmişdir.

O, adları qeyd olunan tədqiqatlarında təkcə Azərbaycanın deyil, İran, eləcə də, başqa Şərq ölkələri şairlərinin, mütəfəkkirlərinin yaradıcılığını müqayisəli araşdırmaya cəlb etmişdir. Biz alimin "Nizami ardıcılları" monoqrafiyası üzərində dayanmaq istəyirik. Bu əsər Nizaminin 850 illik yubileyinin dövlət səviyyəsində qeyd olduğu vaxt, 1991-ci ildə işıq üzü görmüşdür. Azərbaycanın yenicə müstəqillik əldə etdiyi bir zamanda belə bir əsərin nəşri tarixi zərurətdən irəli gəlirdi. Azərbaycan xalqının tarixi keçmişində Nizami Gəncəvi kimi dühaların olması ilə öyünmək yalnız milli ruhun yüksəlişinə səbəb ola bilərdi ki, bu kitab da başqa belə əsərlər kimi öz tarixi rolunu oynaya bilmişdi. Əsərin rus dilində nəşri isə bizi – Azərbaycan türklərini mədəniyyətsiz xalq kimi təqdim etməyə çalışan bədxah qonşularımıza da tutarlı cavab idi. Belə ki, monoqrafiya XII əsrdə Azərbaycanda yaşamış və dünya ədəbi prosesinə təsir göstərə bilmiş dühə sahibinin yalnız qədim tarixə və köklü ədəbi ənənələrə malik xalq arasında yetişə biləcəyi həqiqətini, Nizami zəkasının Gəncə kimi mühüm və qədim mədəniyyət mərkəzinin yetirməsi olduğu faktını daha geniş auditoriyaya duyura bilmişdi.

Bu kitabda nəzirəçilik ənənəsinin spesifikası izah olunur, Nizami əsərlərinə yazılan nəzirələrin sadə bənzətmə və cavablardan fərqləndiyi, müstəqil əsər olması elmi əsaslarla sübuta yetirilirdi. Həmin əsərlərdə Nizami "Xəmsə"sinə daxil olan poemaların mütərəqqi xüsusiyyətlərinin qorunması, davam və inkişaf etdirilməsi, Nizami ədəbi məktəbinin nümayəndələri tərəfindən şairin bənzərsiz üslubunun yaşadılması nümunələr gətirilməklə izah olunurdu.

Mehdi Kazımovun adıgedən tədqiqatında Nizami ədəbi məktəbi haqqında aşağıdakı elmi qənaətləri xüsusi maraq doğurur: - Fars dilində ədəbiyyat yaradan xalqların durmadan müştərək bədii fəaliyyəti onların ədəbi nailiyyətlərinin müntəzəm çoxalmasına səbəb olmuş və bunun nəticəsində də ədəbi məktəbin əhatəsi genişlənmişdir. Bu da öz növbəsində zahirən ilkinliyini qoruyan formaların daxilən dəyişməsinə və müntəzəm təkmilləşməsinə səbəb olmuşdur.

Bədii təxəyyül dini-fəlsəfi düşüncəni, əsasən də sufi dünyagörüşünü ifadə etdiyindən nəzirələrin yaranması prosesi farsdilli ədəbiyyatın inkişafına və onun əhatə dairəsinin daha da genişlənməsinə xüsusi təsir göstərirdi.

"Xəmsə" ənənəsi şairə ideoloji mövqeyini tam ortaya qoymaq, dini, fəlsəfi, sosial, etik və estetik baxışlarını sistem halında açıqlamaq imkanı verirdi ki, Nizami ardıcılları da bu mükəmməl formadan nəzirəçilikdə kifayət qədər faydalanmışdı.

Nəzirə yazan şairlər artıq oxucunun ondan nə gözlədiyini bilirdi, orta əsrlərdə klassik forma zamanın ədəbi tələbi olduğundan nəzirəçilər mövcud tələblər daxilində hərəkət edir, bu çərçivədə uğur əldə etməyə çalışırdılar.

Nəzirənin təkamülü və müəllif təşəbbüskarlığı nəticəsində xəmsəçilikdə də müəyyən struktur dəyişikliyi gedirdi, Nizami mövzularında yazılan poemaların ardıcıllığı dəyişə, sayı arta bilərdi. Yəni "Xəmsə" formal olaraq Nizami poemalarına ümumi cəhətləri ilə uyğun gələn cavab statusu daşısa da, yenə də "Xəmsə"nin əsas xarakterik cəhətləri qorunurdu.

XII-XVI əsrlər ərzində farsdilli poeziyada bədii əsərlərin qəhrəmanları əsasən



yuxarı təbəqənin nümayəndələrindən: şahzadə, əmir, vəzir kimi xüsusi sosial statusa malik insanlardan ibarət olurdu. Ona görə ki, onların müxtəlif situasiyalarda davranışları, hərəkətləri, əməlləri bütün sosial təbəqələr üçün aydın olur, etik norma kimi qəbul edilir və tərbiyə prosesinə xidmət göstərirdi.

Çox zaman hadisənin təqdimatı əyləncəli xarakter alır, bəzən lətifə, heyvan surətlərinin iştirakı ilə qurulan epik səhnələr, bəzən də fantastik elementlərin yer aldığı dini mövzulu süjetlər cəlb etmə vasitəsi kimi tətbiq olunur, hikmətli kəlamın oxucuya ötürülməsi üçün bunlar bir vasitə qismində çıxış edirdi.

Didaktik mövzuda yazılan əsərlərdə nəql etmə prosesində bədii material əsasında duran süjet kifayət qədər məşhur əhvalatla bağlı olduğu zaman nəzirə yazan müəlliflər onu tam verməkdən qaçırdı, müəyyən ixtisarlar edir, yalnız süjetin düyün məqamlarını verməklə kifayətlənirdilər.

Orta əsrlər Şərq ədəbiyyatında Nizaminin təsiri didaktik əsərlərdən daha çox romantik məhəbbət mövzulu poemalarda hiss olunur. Nizami ilə bu mövzuda rəqabət aparmaq çətin olsa da, məhəbbət romanları orta əsr nəzirələrinin əsasını təşkil edirdi. XVI əsrdə nəzirə stereotipləri yavaş-yavaş aradan qalxdığı zaman bu mövzuda əsər yazmaq istiqamətində də müəyyən irəliləyiş baş verir. Bu da ilk növbədə Nizamiyə yazılan "cavab"larda normativliklə fərdilik arasındakı balansda nəzərə çarpırdı.

Nəzirəçilikdəki fərdilik daha çox bədii təqdimatda: peyzaj təsvirində, gözəllərin, sarayların, məclislərin və sairin tərənnümündə hiss olunurdu. Bunun üçün şairlər dövrün estetik tələblərinə cavab verən bədii modellər ortaya qoymağa cəhd edir, şeir texnikasında əldə olunan yeni nailiyyətləri tətbiq etməyə çalışırdılar.

Tezislər şəklində ümumiləşdirməyə çalışdığımız professor Mehdi Kazımovun "Nizami ardıcılları" adlı monoqrafiyası müsəlman Şərqində nəzirəçiliyin spesifikasını ortaya qoyub, ənənəyə sadiqlik çərçivəsində yeniliyə can atmanın mütərəqqi nəticələrini təqdim etməklə təkcə Nizami kimi qüdrətli bir şairin "Xəmsə"sinə yazılan nəzirələrin bədii keyfiyyətini müəyyən etməyə kömək etmir, həmçinin ümumiyyətlə müxtəlif şairlərin əsərlərinə yazılan nəzirələrin öyrənilməsi və dəyərləndirilməsi üçün bir meyar ortaya qoyaraq, gələcək tədqiqatçılar üçün də geniş imkanlar açırdı.

Qeyd edək ki, alim özü də bu istiqamətdə tədqiqatlarını davam etdirmiş və 2012-ci ildə nəşr etdirdiyi "Farsdilli ədəbiyyatın yeddi əsri" adlı kitabında X-XVI əsrlərdə fars dilinin ədəbiyyat dili kimi yayıldığı ərazilərdə müxtəlif xalqların təmsil olunduğu vahid ədəbi prosesin mövcudluğunu nümunələrlə əsaslandıra bilmişdir. Bu nümunələrdə tip və arxetip məsələsi də dərindən öyrənilmişdir.

Elmi yaradıcılığının əsas tədqiqat istiqaməti orta əsrlərdə farsdilli poeziyada Nizami təsiri və ədəbi məktəblər olan Mehdi Kazımov 1982-ci ildən Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində tədris prosesində yaxından iştirak edir. Hazırda Bu universitetin İran filologiyası kafedrasının müdiri vəzifəsində çalışan alim yeni nəsil şərqşünasların ixtisaslaşmış mütəxəssis kimi yetişməsində əlindən gələni əsirgəmir, o, neçə-neçə doktorant və dissertantın elmi rəhbəri, məsləhətçisidir. M.Kazımovun çoxsaylı elmi monoqrafiyaları, tərcümə və tərtib kitabları, elmi məqalələri Azərbaycan şərqşünaslığının mühüm nailiyyətləri sırasındadır. Onun müəllifi olduğu kitablar dəfələrlə xarici ölkələrdə sərgilənib, beynəlxalq tədbirlərdə monoqrafiyalarının təqdimatı yüksək səviyyədə keçirilib.

Professorun bu xidmətləri dövlətimiz tərəfindən də yüksək qiymətləndirilmişdir, o, Respublika Prezidentinin müvafiq sərəncamı ilə Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bu il professor Mehdi Kazımov ömrünün 65-ci baharını qeyd etdi. Biz alimi bu münasibətlə təbrik edir, ona elmi-pedaqoji fəaliyyətində daha böyük nailiyyətlər əldə etməyi arzu edirik.



*Əzizağa* Nəcəfzadə
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi*